

MƏLAHƏT YUSİFQIZI

# AZADIN İLK "İSMİ PÜNHAN"I




25 aprel 1967-ci ildə Neftçala şəhərində dünyaya göz açan Azad Qəlbinurun məzmunu sevgiyə, ayrılığa, qəza-qədərə köklənən bu kitabının bir özgə havada, bir özgə kökdə olmasına tale, qarşıya çıxan qəfil qəza aman vermədi. Gözlənilməz və qəfil zərbənin ağırlığına döndərilən, yarı yolda qırılan sevginin hopduğu kitabın, həm də ilk kitabın oxunaqlı olacağına ümid edirik.

*Silahım qələmdir, mərmim şeirlər,*
*Mənimlə döyüşdə uduzar şərlər.*
*Ey məğrur igidlər, qalib əsgərlər!*
*Döyüşüb geridə qalmayacağam,*
*Qorxunu yadıma salmayacağam.*

*Azad Qəlbinuram, dərdim elimdir,*
*Sərvətim Aranım, Muğan-Milimdir.*
*Vətən məhəbbətim, şirin dilimdir,*
*Vətənsiz zövqümü almayacağam,*
*Qorxunu yadıma salmayacağam.*

Belə oğulların məğrurluğunu, ərliyini qandallayıb, döyüşkənliyini, Vətən, torpaq tərəfkeşliyini əsarətdə saxlayan dünya siyasətini lənətə gəlsin! Bu siyasət igidliyi, ərliyi zamanın arxivinə atır, qeyrəti korsaldır, qüruru sındırır. Əlinə qələm alan qələmini ilk olaraq öz yaddaşına, duyğusina, hiss və həyəcanına, üstündə yaşadığı torpağa, sığındığı yurda, el-obaya, Vətənə, ata-anaya, qardaş-bacıya, qohum-qəbiləyə, xalqa, millətə kökləməli, sonra bəşəri olmalıdır. Özdən əvvəl özgə ola bilməz. Əgər olarsa, onda:

*Gizlin qan ağlayır ulu Vətənim,*
*Bir vaxt ərənlərlə dolu Vətənim.*
*Daşınır sərvəti, malı Vətənin,*
*Pas atıb qılıncsız qınım, Allahım! -*

deməli olursan. Gördüyünü demək, yazmaq yazıçının, şairin gündəlik işinə çevrilirsə, o olur, qələmlə döyüş. Qələmlə döyüşə durmayan yazıçı, şair əsir düşmüş döyüşçüdən də ağrılı duruma düşür.

Azad azadlıqsevərliyi, ayıqlığı, özünü özgədən ayıra bilmək, hər nəsnənin qiymətini vermək baxımından ayıqlığı olan bir insandır. Azad ailənin fövqündə dayanıb, böyük ailə olan millətin, bəşərin qayğısına qalan qələm sahibidir. Düzdür, bu kitabda əsasən qəzaya uğrayıb, dünyasını dəyişmiş xanımına həsr etdiyi yazılar toplanıb, amma mövzu rəngarəngliyi Azadın yaradıcılığını izləyən xətdir və təqdirəlayiqdir. Bu yolda ona uğurlar arzulayır, davamını gözləyirik.



